Academic Journal of History and Idea Академическая История и Мысль
Akademik Tarih ve Düşünce Dergisi
ISSN: 2148-2292
*Araştırma Makalesi* https://doi.org/10.46868/atdd.115 *Original Article*

# Hindistanlı alimin "Azərbaycan və Ermənistan arasında münaqişəyə yenidən baxış" adlı məqaləsində Dağlıq Qarabağ münaqişəsinin analizinə dair

**İradə Məmmədova[*]**
**ORCID: 0000-0002-2273-5732**

**Elnur Nəciyev[**]**
**ORCID: 0000-0003-3989-6257**

**Xülasə**

Məqalədə Hindistanın Aliqarx Müsəlman Universitetinin incəsənət və sosial elmlər fakültəsinin siyasi elmlər kafedrasının professoru Arşi Xanın 2020-ci ildə "The İndian Journal of Politics" jurnalının 54-cü cildinin 1-2-ci nömrələrində dərc edilən "Azərbaycan və Ermənistan arasında münaqişəyə yenidən baxış" adlı məqaləsi təhlil edilmişdir. Təhlil edilən məqalədə Dağlıq Qarabağ münaqişəsinə ölkə hüdudlarından kənardan necə münasibət göstərilməsinə, bu münasibətin obyektiv və subyektiv cəhətlərinə, məqalə müəllifinin diqqətindən qaçan nöqsanlar və həmin yanlışlıqların mənbələr əsasında bərpasına da diqqət yetirilmişdir. Məqalənin ən maraqlı cəhəti hindistanlı alim Arşi Xanın məqaləsində tədqiq edilən 4 əsas istiqamətin hər birinin ayrı-ayrılıqda araşdırılaraq münasibət bildirilməsidir. Tədqiq edilən məqalədə müəllifin Dağlıq Qarabağ münaqişəsini nə dərəcədə obyektiv və incəliklə araşdırmasını önə sürülən istiqamətlərdən də aydın görmək olur. "Azərbaycanlıların Qafqazın yerli türk əhalisi, ermənilərin isə Qafqaza gəlmə olması", "Azərbaycan Suverenliyinə təhdidlər", "1918-ci il soyqırımı", "Erməni təşviqatı, Sorğu hesabatı və Xocalı soyqırımı" və "Dağlıq Qarabağ barədə faktlar" kimi məqalənin əsas istiqamətləri Azərbaycan həqiqətlərinin düzgün istiqamətdə araşdırılması və təbliği baxımdan son dərəcə mühüm əhəmiyyət kəsb edir.

**Açar Sözlər:** Azərbaycan, Dağlıq Qarabağ, Ermənistan, münaqişə

**Gönderme Tarihi: 12/02/2021** **Kabul Tarihi:29/03/2021**

---

[*] *Doçent, AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun "Ümumi tarixi" şöbəsinin bölmə müdiri, Azərbaycan, irade.mammadli@gmail.com*
[**] *Doktora, AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın tarixi demoqrafiyası" şöbəsinin doktorantı, Azərbaycan,elnurneciyev@gmail.com*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
MEMMEDOVA, İ.- NECİYEV, E., ''Hindistanlı alimin "Azərbaycan və Ermənistan arasında münaqişəyə yenidən baxış" adlı məqaləsində Dağlıq Qarabağ münaqişəsinin analizinə dair'', *Akademik Tarih ve Düşünce Dergisi*, C. 8, S. 1., 2021, s. 412-425.

# On the analysis of the Nagorno-Karabakh conflict in the article of the Indian scientist "Revisiting the Conflict between Azerbaijan and Armenia"

İradə Məmmədova[*] Elnur Nəciyev[**]
ORCID: 0000-0002-2273-5732 ORCID: 0000-0003-3989-6257

**Abstract**

The article analyzes the scientific publication of Arshi Khan, Professor of Political Science, Faculty of Humanities and Social Sciences, Aligarh Muslim University of India, entitled "Revisiting the Conflict between Azerbaijan and Armenia", published in the Indian Political Journal, Volume 54, issues 1-2, 2020. The article also focuses on the interpretation of the Nagorno-Karabakh conflict outside the country, the objective and subjective aspects of these opinions, the shortcomings that escaped the attention of the author, and the restoration of these errors based on sources. The most interesting aspect of the article is that each of the 4 main directions studied in the article by the Indian scientist Arshi Khan is studied separately and commented on. The degree of study of the topic, in which the author examines the Nagorno-Karabakh conflict in detail and objectively, is clearly visible in the article. "Azerbaijanis are the indigenous Turkic population of the Caucasus, and Armenians in the Caucasus are not a local people", " Threats to Azerbaijan's Sovereignty", "The Genocide of 1918", " Armenian Propaganda, Inquiry Report and Khojali Massacre" and "Nagorno Karabakh Fact-Sheet" - these main areas of the article are extremely important in terms of studying and promoting the realities of Azerbaijan in the right direction.

**Keywords**: Azerbaijan, Nagorno-Karabakh, Armenia, conflict.

**Received Date: 12/02/2021** **Accepted Date: 29/03/2021**

---

[*] *Associate professor, Department manager of the "Uummi history" branch of the Tarix Institute on behalf of AMEA's A.A. Bakıxanov, Azerbaijan, irade.mammadli@gmail.com*

[**] *Doctorate, Doctorate of AMEA's Department of "Historical Democracy of Azerbaijan" of Tarix Institute in the name of A.A.Bakixanov, Azerbaijan, elnurneciyev@gmail.com*

***You can refer to this article as follows:***

MEMMEDOVA, İ.- NECİYEV, E., ‘’Hindistanlı alimin “Azərbaycan və Ermənistan arasında münaqişəyə yenidən baxış” adlı məqaləsində Dağlıq Qarabağ münaqişəsinin analizinə dair’’, *Academic Journal of History and Idea*, V. 8, N. 1, 2021, p.412-425.

# Об анализе Нагорно-Карабахского конфликта в статье индийского ученого «Возвращаясь к конфликту между Азербайджаном и Арменией»

**Ирада Мамедова*** **Эльнур Наджиев****
**ORCID: 0000-0002-2273-5732** **ORCID: 0000-0003-3989-6257**

**Резюме**

В статье проанализировано научная публикация Арши Хана, профессора политологии факультета гуманитарных и социальных наук Алигархского мусульманского университета Индии, озаглавленная «Пересмотр конфликта между Азербайджаном и Арменией», опубликованная в Индийском политическом журнале, том 54, выпуски 1-2, 2020. В анализируемой статье также уделяется внимание в трактовке нагорно-карабахского конфликта за пределами страны, объективным и субъективным аспектам этих отношений, недостаткам, ускользнувшим от внимания автора, и восстановлению этих ошибок на основе источников. Самым интересным аспектом статьи является то, что каждое из 4 основных направлений, изученных в статье индийского ученого Арши Хана, изучается отдельно и комментируется. Насколько объективно и детально автор исследует нагорно-карабахский конфликт в исследуемой статье, хорошо видна из выдвигаемых направлений. «Азербайджанцы - коренное тюркское население Кавказа, а армяне на Кавказе не являются местным народом», «Угрозы суверенитету Азербайджана», «Геноцид 1918 года», «Армянская пропаганда, отчет о расследовании и Ходжалинская резн» и «Факты о Нагорном Карабахе» - эти основные направления статьи чрезвычайно важны с точки зрения исследования и продвижения реалий Азербайджана в правильном направлении.

**Ключевые слова:** Азербайджан, Нагорный Карабах, Армения, конфликт

**Получено: 12/02/2021** **Принято: 29/03/2021**

---

* *Доцент, Заведующий отделом отделения «История Уумми» Института Тарикс от имени АМЕА А.А. Бакыханов, Азербайджан, irade.mammadli@gmail.com*
** *Докторская степень, Докторантура кафедры «Историческая демократия Азербайджана» АМЕА Института Тарикс им. А.А. Бакиханова, Азербайджан, elnurneciyev@gmail.com*
***Ссылка на статью:***
MEMMEDOVA, İ.- NECİYEV, E., ‘’Hindistanlı alimin “Azərbaycan və Ermənistan arasında münaqişəyə yenidən baxış” adlı məqaləsində Dağlıq Qarabağ münaqişəsinin analizinə dair’’, *академическая история и мысль*, T.8, NO.1, 2021, C. 412-425.

## Giriş

Dağlıq Qarabağ ifadəsi məqsədli şəkildə və süni yaradılmış bir termin olduğu kimi Azərbaycanla Ermənistan arasında münaqişə də müəyyən məqsədlərə, bəlli hədəflərə yönləndirilmiş bir münaqişədir. Bu münaqişənin kökü daha dərinlərə - Rusiya imperiyasının Cənubi Qafqazda özünə istədiyi şəkildə yararlana biləcəyi bir dayaq yaratmaq amalına söykənməkdədir. Rusiya imperiyası 1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə müqavilələri ilə bu məqsədini həyata keçirərək ermənilərin kütləvi surətdə Osmanlı dövləti və Qacarlar dövlətindən İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazisinə köçürməsi ilə artıq bu münaqişə başlamış oldu. Çünki köçürülən erməni ailələrinin əksəriyyəti yaylaqda olan Azərbaycan Türklərinin evində və torpaqlarında yerləşdirildi.[1] Bundan sonra köçürülmələrin davam etməsi, qədim Azərbaycan torpaqlarında ermənilərin sayının çoxalmasına, yenə də hamilərinin dəstəyi ilə 1918-ci ildə Qafqazda heç bir zaman dövləti olmayan ermənilər üçün Ermənistan dövləti yaradılması ilə nəticələndi. Bəla bununla da bitmədi, bolşeviklərin dəstəyi ilə Azərbaycan torpaqları hesabına ərazilərini genişləndirən Ermənistan dövləti hər fürsəttə daha çox ərazilərimizi qəsb və işğal etməyə davam etdi. Yenə də rusların aktiv dəstəyi ilə Birinci Qarabağ müharibəsi zamanı 20% torpaqlarımız erməni işğalçılar tərəfindən qəsb edildi. Bununla da kifayətlənmədi və yeni ərazilər ələ keçirmək məqsədilə 27 sentyabr 2020-ci ildə Ermənistan silahlı birləşmələri Azərbaycana qarşı yenidən hücum etdi. Prezident İlham Əliyevin Ali Baş Komandan olduğu Azərbaycan Silahlı Qüvvələri 44 günlük Vətən müharibəsi zamanı erməni işğalçılarının Azərbaycan torpaqlarından rüsvayçılıqla qovulması Azərbaycan xalqının tarixində bir dönüş nöqtəsi oldu. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra ilk dəfə olaraq itirilmiş torpaqlarımız azad edildi. Qazanılan tarixi zəfər bizə dostun kim, düşmənin kim olduğunu göstərdi. Ölkə hüdudlarından kənarda Azərbaycanın haqq davasını dəstəkləyib rəsmi mövqeyini ortaya qoyan dövlətlərlə yanaşı, münaqişənin mahiyyətini ictimaiyyətə daha obyektiv izah etməyə çalışan müxtəlif tədqiqatçıların əsərləri də işıq üzü gördü. Bu əsərlərdən birini - Hindistan alimi Arşi Xanın 2020-ci ildə "The İndian Journal of Politics" jurnalının 54-cü cildinin 1-2-ci nömrələrində dərc edilən 20 səhifə həcmində olan "Revisiting the Conflict between Azerbaijan and Armenia"[2] adlı məqaləsini xüsusilə fərqləndirmək olar. Azərbaycanın haqlı mövqeyini dəstəkləyən Hindistan alimi Arşi

[1] İradə Məmmədova, *İrəvan xanlığının əhalisi*, Azərbaycan Tarixçilər İctimai Birliyi, Bakı 2017, s.29.
[2] Arshi Khan, "Revisiting the Conflict between Azerbaijan and Armenia", *The Indian Journal of Politics*, vol. 54, №1-2, 2020, pp. 1-20.

Xan Aliqarx Müsəlman Universitetinin incəsənət və sosial elmlər fakültəsinin siyasi elmlər kafedrasının professorudur. O, politologiya və beynəlxalq münasibətləri tədris edir. 1989-cu ildən Orta Şərq və Cənubi Asiyada demokratiya, insan hüquqları, dövlət sistemi, siyasi stabillik, təhlükəsizlik və konfliktlər barədə yazılar yazır. Azərbaycan həqiqətlərini təbliğ edir və AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun təşkil etdiyi beynəlxalq konfransların fəal iştirakçısıdır.

Onu da qeyd etmək lazımdır ki, hələ Vətən müharibəsi davam edərkən professor Arşi Xan Hindistanın nüfuzlu qəzetlərin birində "Daily Sabah" qəzetinin 6 noyabr 2020 saylı nömrəsində verdiyi "Armenia's model for Nagorno-Karabakh only creates more chaos" adlı məqaləsi ilə Azərbaycanın haqlı davasında ona dəstək olmuşdur.[3] Qəzetdəki məqaləyə müəllif erməni silahlı qüvvələrinin Gəncə şəhərinə xaincə atdıqları ballistik raket tərəfindən dağıdılmış, üzərində Azərbaycan bayrağı dalğalanan və həlak olan azyaşlının şəkli olan evin fotosunu verməklə başlamışdır. Bu foto ilə Arşi Xan erməni xislətini və vəhşiliyini, ermənilərin mülkü əhalini, xüsusilə də azyaşlıları qəsdən hədəfə almasını oxucuya anlamlı şəkildə çatdıra bilmişdir.Daha sonra isə Arşi Xan artıq yuxarıda adı çəkilən məqaləni nəşr etməklə bir daha Azərbaycana dəstəyini nümayiş etdirməyə davam etmişdir.

**Məqalənin analizi**

Professor Arşi Xanın məqaləsində Azərbaycan və Ermənistan arasındakı münaqişəni tədqiq etməyə cəhd edilir və münaqişənin tarixi köklərinə də nəzər salınır. Hindistanlı alimin də qeyd etdiyi kimi *"Tarixən həm Çar Rusiyası, həm də Sovet İttifaqı ermənilərlə dini qardaşlıqdan başqa siyasi və iqtisadi maraqlara malik olmuşdur, halbuki ermənilər hər zaman antitürkçülük və separatçılıqla məşğul olublar. Bu gün isə Azərbaycanın qarşısında duran başlıca məsələ ərazilərini işğaldan azad etmək və Azərbaycandakı məcburi köçkünlərin 30 il ərzində düçar olduqları əzablar üçün təzminat və üzrxahlıq tələb etməkdir. Bu Qafqazda sülh, bərabərlik, təhlükəsizlik və etibarlılıq səviyyəsini təmin etməyə imkan verəcəkdir".*[4] Bununla hörmətli alim hələ Rusiya imperiyası və Sovetlər dövründə onları biləşdirən dini yöndən başqa, iqtisadi və siyasi məqamlara da toxunaraq, ermənilərin antitürk və separatçı fəaliyyətlərinə diqqəti çəkir. Bundan başqa alim bu gün Azərbaycan üçün prioritet məsələləri açıqlayır və atılan addımların umimilikdə Qafqazda sülhün və təhlükəzliyin qarantı olacağı qənaətinə gəlir.

[3] Armenia's model for Nagorno-Karabakh only creates more chaos https://www.dailysabah.com/opinion/op-ed/armenias-model-for-nagorno-karabakh-only-creates-more-chaos (15.01.2021).
[4] A. Khan, *a.g.e.*, s. 1.

Məqalədə digər maraqlı bir cəhət müəllifin münaqişə həll olunduqdan sonra Rusiya və Azərbaycan, Azərbaycan və İran arasında münasibətlərin yeni mərhələsinin necə formalaşacağını təhlil etməsidir. Professor Arşi Xan qarşıya qoyduğu bu problemi **"Azərbaycan və Ermənistan arasında münaqişəyə yenidən baxış"** adlanan məqaləsində 4 istiqamətdə araşdırır:

- *Azərbaycanlıların Qafqazın yerli türk əhalisi, ermənilərin isə Qafqaza gəlmə olması,*[5]
- *"Azərbaycan Suverenliyinə təhdidlər",*[6]
- *"1918-ci il soyqırımı",*[7]
- *"Erməni təşviqatı, Sorğu hesabatı və Xocalı soyqırımı*",[8]
- *"Dağlıq Qarabağ barədə faktlar".*[9]

Tədqiqatçı ilk olaraq Azərbaycan türklərinin Qafqazın aborigen əhalisi olması məsələsinə diqqət çəkir. Bu məqsədlə məqalədə ilk olaraq Azərbaycanın strateji baxımdan yerləşdiyi əlverişli coğrafi mövqe, Azərbaycanlıların bir sıra zəngin mədəniyyətlərə sahib olmalarına baxmayaraq mədəni, sosial, dini, ticarət, dil və mənəvi dəyərlər baxımdan Qafqaz türkü kimi öz milli kimliyini qoruyub saxlamasını qeyd edir. Məqalədə diqqət çəkən bir başqa məqam Çar Rusiyasının Azərbaycanın dövlətçiliyinə qarşı təhdidləri, xüsusilə XIX əsrdən başayaraq erməni şovinistlərindən daha məhsuldar istifadə etməsinin qeyd olunmasıdır. Arşi Xanın da qeyd etdiyi kimi *Çar Rusiyasının Azərbaycana qarşı ədalətsiz siyasətini davam etdirən müasir Rusiya Federasiyası da Azərbaycanın və vaxtı ilə işğal edilmiş ərazilərdə yaşamış 1 milyon azərbaycanlı qaçqının qanuni tələblərini rədd etməyə davam etmişdir. Ermənistan Republikası da öz növbəsində Dağlıq Qarabağdakı separatçılara dəstək verməyə davam etmiş və son nəticədə işğal edilən ərazilərdən geri çəkilməyə məcbur edilmişdir. Bundan başqa ermənilər bütün dünyada özlərini qurban kimi göstərməyə davam etməklə Azərbaycan xalqına qarşı öz cinayətlərini gizlətmişdilər.*[10] Arşi Xan bu dəyərləndirmələri ilə erməni xislətinin mahiyyətini açıq göstərməyə çalışmış, ermənilərin Azərbaycan torpaqlarını işğal edərək, bu torpaqları ciddi-cəhdlə öz əraziləri olaraq qələmə vermələrinə, erməni

[5] Ermənilərin Qafqaza gəlmə xalq olmasına dair ətraflı məlumat üçün baxın: Yaqub Mahmudov, *Real tarix və "Böyük Ermənistan uydurması"*, Turxan NPB, Bakı, 2014.
[6] A. Khan, *a.g.e.*, s. 2-3.
[7] A. Khan, *a.g.e.*, s. 3-7.
[8] A. Khan, *a.g.e.*, s. 7-10.
[9] A. Khan, *a.g.e.*, s. 10-17.
[10] A. Khan, *a.g.e.*, s. 2.

separatçılarına Ermənistan və Rusiyadan gələn dəstəyə, bir milyondan artıq qaçqının qanunu tələblərinə dünyada olan laqeydliyə diqqəti yönəltməklə kifayətlənmir, eyni zamanda son nəticədə Azərbaycan ordusunun erməniləri işğal edilmiş ərazilərdən geri çəkilməyə məcbur etdiyi yazır. Alimin hadisələrə obyektiv yanaşması təqdirəlayiqdir. Təəssüf ki, qərb alimlərinin əsərlərində bu cür yanaşmaya çox nadir hallarda rast gəlinir.

Tədqiqatçı daha sonra məqalənin ***"Azərbaycanın suverenliyinə təhdidlər"*** adlı altbaşlığında 1991-ci ildə itirilmiş müstəqilliyini yenidən qazanmağa nail olan Azərbaycan Respublikasının 200 illik insani fəlakətlərlə dolu tarixinə diqqət yetirir. Arşi Xan məqalədə Çar Rusiyasının 1813-cü ildə Gülüstan[11] və 1828-ci ildə Türkmənçay[12] müqaviləsi ilə Azərbaycan torpaqlarını parçalamağa başlamasını və erməni şovinistləri ilə sıx əməkdaşlıq şəraitində Azərbaycan xalqına qarşı olmazın müsibətlərin baş verməsinə şərait yaratmasını qeyd edir. Müəllif bu fikirlərini 1920, 1987-1991-ci illərdə ermənilər və Ermənistan hökuməti tərəfindən Azərbaycan əhalisinə qarşı törədilən qətliam və sürgünlərə rusların mane olmamasını göstərməklə əsaslandırır.[13] Alimin Azərbaycanın yaşadığı bu hadisələri ağrılı bir şəkildə qələmə alması, onun o dönəmdə baş verən faciələri dərindən dərk etməsindən irəli gəlir.

Arşi Xan 1991-ci ildə müstəqilik əldə etdikdən sonra ötən 3 ilin Azərbaycan Respublikası üçün daha ağrılı olmasını – suveren ərazisi olan Dağlıq Qarabağ və ətraf 7 rayonun qanunsuz olaraq ermənilər tərəfindən işğal edilməsini xüsusilə qeyd edir. Təəssüf hissi ilə o da vurğulanır ki, Qərb gücləri, Rusiya Federasiyası və Avropa Birliyi hətta indinin özündə belə Azərbaycanın ədalətli tələblərini cavabsız qoyub. Nəhayət 2020-ci ilin sentyabr-noyabr aylarında Azərbaycan işğal altında olan öz torpaqlarını azad etdi. Tədqiqatçının bu cür mövqe nümayiş etdirməsi olduqca təqdirəlayiq haldır. Məqalənin bu altbaşlığında qoyulan məsələlərdən çıxan nəticəni belə ifadə etmək olar: Azərbaycan Respublikasının qarşısında duran əsas məqsəd Rusiyanın, Qərbin susaraq atəşkəs və danışıqları qoruyub saxlamaq mövqeyinə qarşılıq olaraq ermənilərin işğal etdiyi Azərbaycan torpaqlarını azad etmək. Məqalənin bu altbaşlığının sonunda müəllif çox doğru olaraq hadisələrin kökünü ermənilərin İrəvan, Naxçıvan və Qarabağ xanlığının ərazilərinə köçürülməsi ilə başladığını qeyd edir. Daha sonra tarixi dəyişikliyə səbəb olan "Böyük Ermənistan" iddiaları və ideyanı reallaşdırmaq üçün ermənilərin Qafqaz türklərinə qarşı ilk sistemli etnik təmizləmə işinə -

[11] Gülüstan müqaviləsinin mətni üçün baxın: *Dogovorı Rossii s Vostokom*, sobral i izdal T. Yuzefoviç, tip. O.İ.Baksta, Sankt-Petersburg, ss. 208-214.
[12] Türkmənçay müqaviləsinin mətni üçün baxın: *Dogovorı Rossii s Vostokom*... ss. 214-227.
[13] A. Khan, *a.g.e.*, s. 3.

1905-1907-ci illər qırğınlarına başlaması vurğulanır.[14] Bütün bu prosesin də öz növbəsində 1918-ci il soyqırımları ilə davam etdiyini hindistanlı alim məqalənin növbəti "***1918-ci il soyqırımları"*** adlı altbaşlığında ətraflı şəkildə şərh edir ki, bu da Hindistan kimi erməni diasporasının güclü olduğu bir məkanda Azərbaycanın haqq səsinin Hindistan cəmiyyətinə çatdırılmasında əvəzedilməzdir.

***"1918-ci il soyqırımları"*** adlı altbaşlığında soyqırımlar barədə məlumat verməzdən əvvəl Bakıda neft sənayesinə sürətlə inkişaf etdiyini vurğulayan müəllif bununla bağlı şəhərə erməni miqrasiyalarının daha da artmasını qeyd edir. Tədqiqatçı çox doğru olaraq bununla bağlı olaraq XX əsrin əvvəllərində ermənilərin artıq Bakının inqilabi və sosialist hərəkatlarında fəal rol oynamağa başladıqlarını yazır. Müəllif sonrakı proseslərdə 1905-1907-ci illər I Rus İnqilabı vaxtı erməni millətçi Daşnaksütyun partiyasının Bakıda erməni fəhlələri arasında millətçilik ideyaları yaymaqla bir növ gələcək etnik təmizləmələr üçün zəmin hazırladığını qeyd edir. Arşi Xan məhz bu zəminin 1905-1907-ci illərdə türk-müsəlman əhaliyə qarşı qırğınlar törədilməsinə, minlərlə insanın qəddarlıqla öldürülməsinə gətirib çıxardığını bildirir. Müəllifə görə Bolşeviklər və Daşnaksütyun partiyası tərəfindən 1918-ci il soyqırımları daha planlı şəkildə törədilir. [15] Müəllif haqlı olaraq bəyan edir ki, ermənilər bolşevizm örtüyü altında hərbi cinayətlər törədir və bu işin təşkilinə Vladimir Lenin tərəfindən Qafqazın Fövqəladə Komissarı təyin edilən Stepan Şaumyan rəhbərlik edir. Arşi Xan Rusiyanın davamlı olaraq erməniləri silahlandırması nəticəsində təkcə Şərqi Anadoluda 250.000-dən 300.000 nəfərədək insanın ermənilər tərəfindən soyqırıma məruz qalmasını qeyd edir. Hindistanlı alimin də təsdiq etdiyi kimi ermənilərin bu "xidməti"ndə Britaniya və Amerikalı missioner və diplomatik kanallar da müəyyən pay sahibi olmuş, onillər boyu erməniləri dəstəkləmişdilər.[16] Erməni-bolşevik birləşmələrinin birgə fəaliyyətinin nəticəsində Bakıda 20.000, Qubada 16.000 azərbaycanlının etnik təmizlənməyə məruz qaldığını vurğulayan tədqiqatçı ermənilərin qısa zaman kəsiyində Şamaxı, İrəvan, Zəngəzur, Qarabağ, Naxçıvan və Qarsda da soyqırımları təşkil etdiyini və soyqırımlar nəticəsində öldürülən insan sayı, dağıdılan kəndlər barədə ətraflı məlumat verir.[17] Məqalədə 2007-ci ildə aşkarlanan Quba məzarlığının ermənilər tərəfindən yalnız türk-müsəlman əhaliyə qarşı deyil, yəhudilərə qarşı da törədilməsinin bir dəlili olması barədə məlumat verilir. Ermənilərin etnik təmizləmə siyasətinin məntiqli nəticəsi kimi ermənilər tərəfindən 1920-ci ildə Zəngəzurun işğal

[14] A. Khan, *a.g.e.*, s. 3.
[15] A. Khan, *a.g.e.*, s. 4.
[16] A. Khan, *a.g.e.*, s. 4.
[17] A. Khan, *a.g.e.*, s. 6.

edilməsinə də məqalədə diqqət çəkilir. Altbaşlıqda öz əksini tapan 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalisinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarın nəticəsinə də toxunulur. Müəllif yazır ki, bu qərarın nəticəsində 1948-1953-cü illərdə ermənilər azərbaycanlıların dövlət səviyyəsində öz tarixi torpaqlarından kütləvi şəkildə sürgün edilməsinə də nail oldular. Altbaşlığın sonunda mart hadisələri vaxtı Azərbaycanda soyqırıma məruz qalan türk-müsəlman əhalinin sayı çox güman ki, yalnışlıqla 700 nəfər olaraq qeyd edilir [18] və nəzərə alsaq ki, 1918-ci il 31 martda sadəcə Bakıda "15 min günahsız türk[19] kəsilmişdi"[20], o zaman əslində bu rəqəm daha çox olmalı idi. Elə müəllifin özü də məqalədə sadəcə İrəvan əyaləti üzrə soyqırıma məruz qalan əhalinin sayını 135.000 nəfər və digər tarixi Azərbaycan torpaqlarının hər biri üzrə də ən azı 10 minlərlə olmasını qeyd edir.[21] Onu da qeyd etmək lazımdır ki, 1918-1919-cu illərdə daşnaq hökümətinin etnik təmizləmə siyasətindən sonra, Qərbi Azərbaycanda yaşayan Azərbaycan türklərinin 565 mini öldürülmüş və yaxud qovulmuş, 1920-ci ildə isə 787,501 Azərbaycan türkü qətledilmişdir[22].

Məqalənin ***"Erməni təşviqatı, Sorğu hesabatı və Xocalı soyqırımı"*** başlıqlı altbaşlığında Arşi Xan XX əsrin 50-cı illərindən başlayaraq erməni millətçilərinin apardığı təşviqat kompaniyasının zərərlərinə diqqət çəkir. Ermənilərin Azərbaycan xalqına qarşı bu istiqamətdə gördükləri işlərin sırasında aşağıdakıları fərqləndirir:

- *Azərbaycana aid milli mədəniyyət, klassik irs və memarlıq abidələrinə sahiblənmək üçün silsilə kitablar, jurnallar və qəzetlər çap etdirmək;*
- *Azərbaycan xalqı barədə dünyada mənfi təsəvvür yaratmaq cəhdlərini gücləndirmək.*
- *Özlərini əzabkeş xalq kimi göstərmək üçün regionda XX əsrin əvvəllərində baş verən hadisələri təhrif etmək.*[23]

Müəllif özlərini soyqırım qurbanları kimi təqdim edən ermənilərin əslində özlərinin Azərbaycan xalqına qarşı soyqırım törətdiklərini qeyd edir. Müəllifin bu yanaşması çox önəmlidir. Arşi xan ermənilərin bu prosesin gedişində Azərbaycanın tarixi yer-yurd adlarını

---

[18] A. Khan, *a.g.e.*, s. 7.
[19] Azərbaycan türkləri nəzərdə tutulur.
[20] Məhəmməd Muradzadə, *Mart hadiseyi - əliməsi.* (ərəb əlifbasından çevirən S. Məmmədova), Azərnəşr, Bakı 1996, s. 4-5.
[21] A. Khan, *a.g.e.*, s..
[22] Sevil İrevanlı. *Kafkaslardaki Kıyım ve Sürgünler. Batı Azerbaycan'da Rus ve Ermenilerin Yartığı Soykırım.* Türk Araştırmaları Vakfı, İstanbul 2015, s. 420.
[23] A. Khan, *a.g.e.*, s. 7.

dəyişdirdiyini, əhalisinin əkəriyyəti bir vaxtlar əsasən azərbaycanlılardan ibarət olan keçmiş İrəvan xanlığının ərazisində qurulmuş Ermənistan SSRİ-nin ərazilərində həmvətənlərimizi kütləvi təqib və zülmə məruz qoyduqlarını bildirir. Tədqiqatçı ermənilərin gənc nəsillərini şovinist ruhda böyütmək üçün qondarma erməni tarixini dövlət səviyyəsinə qaldırmasını qeyd edir. Daha sonra ermənilərin 80-ci illərdə anti-azərbaycan təbliğatına yetərli diqqət yetirmədiyinə görə Azərbaycan rəhbərliyini də günahlandırır. Əslində isə 80-ci illərin sonu məhz Sovet hökümətinin də təşəbbüsü ilə Azərbaycan üçün elə bir böhranlı vəziyyət formalaşdırılmışdı ki, bu vəziyyəti düzgün dərk edib nəticə çıxaran liderə ehtiyac vardı. Çünki tədqiqatçının da qeyd etdiyi kimi Azərbaycan bir tərəfdən Qarabağ ətrafında baş verən böhranlı vəziyyət, digər tərəfdən də yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından sürgün edilməsi ilə üz-üzə qalmışdı. Bu hadisələrin məntiqli nəticəsi kimi də Azərbaycan xalqı əvvəlcə 1990-cı ilin qanlı yanvar hadisələrinə, 1992-ci ilin fevralın 26-da isə Xocalı soyqırımına məruz qaldı[24]. Professor Arşi Xan apardığı tədqiqatın gedişində tez-tez fikirlərini qüvvətləndirmək və əsaslandırmaq üçün əvvəlki dövrün tarixi hadisələrinə də müraciət edir, o, daha əvvəl məlumat verdiyi 1918-ci il soyqırımları ilə bağlı məsələyə bu altbaşlıqda da toxunur. Fövqəladə Təhqiqat Komissiyasının ermənilərin türk-müsəlman əhaliyə qarşı soyqırımları ilə bağlı gördüyü işləri azərbaycanlılara qarşı törədilən soyqırımı siyasəti ilə bağlı ilk cəhd hesab edən tədqiqatçı tərtib edilən 36 cildlik və 3500 səhifəlik sənədlər toplusunun əhəmiyyətini vurğulayır. Bu baxımdan da o, Ulu öndər Heydər Əliyevin 31 mart tarixinin Azərbaycanlıların Soyqırımı Günü [25] elan edən 26 mart 1998-ci il tarixli sərəncamını

[24] Hocalı soyqırımının törədilməsində Xankəndində yerləşən 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyəti yaxından iştirak etmişdi, bu fakt Azərbaycanda kəskin etiraz doğurmuşdu (*Xodjalı. Xronika genosida.* Azerneşr, Baku, 1993, s. 46-92).

[25] Qeyd etmək lazımdır ki, Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilib və Nazirlər Şurası iyulun 15-də bu faciənin tədqiqi məqsədi ilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul edib. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırıb. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradılıb. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilib. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı prosesinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi olub. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra həmin proses dayandırılıb, baş verənlərin sona qədər təhqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınıb. Yalnız 80 il sonra - 1998-ci il martın 26-da Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanda həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilib və 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilib. Fərmanda deyilirdi: "Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir". Ümummilli lider Heydər Əliyev 31 mart - "Azərbaycanlıların Soyqırımı Günü" ilə əlaqədar deyib: "Xalqımıza qarşı törədilmiş soyqırımı haqqında həqiqətləri real faktlar,

bu soyqırım aktına siyasi-hüquqi qiymət verilməsi baxımından əsas sənəd olmasını qeyd edir.[26]

Məqalənin ***"Dağlıq Qarabağ barədə faktlar"***[27] adlanan son altbaşlığı həm müəllifin fikirlərini ümumiləşdirməsi, həm 1813-cü ildən başlayaraq Azərbaycan xalqının başına gətirilən soyqırımlara, sürgünlərə qiymət verməsi baxımından olduqca diqqətəlayiqdir. Müəllif yalnışlıqla 1813-cü ildə imzalanan Gülüstan müqaviləsini 1823-cü il, 1828-ci ildə imzalanan Türkmənçay müqaviləsini 1928-ci il kimi qeyd edir. Bunu texniki xəta kimi qiymətləndirmək olar. Müəllif müqavilələrin Çar Rusiyası ilə Səfəvilər dövləti arasında imzalanmasını[28] vurğulamaqla da yalnışlığa yol verir. Çünki o dövrdə Səfəvilər dövləti mövcud deyildi və qarşı tərəf Qacarlar dövləti idi.

Məqalədə ermənilərin Dağlıq Qarabağda əhali sayında mexaniki artım hesabına baş verən dəyişikliyə də diqqət çəkilir. 1828-ci ildən 1991-ci ilə qədər Qarabağdan, Ermənistandan azərbaycanlıların sıxışdırılıb çıxarılması hesabına mövcud demoqrafik vəziyyətin ermənilərin xeyrinə dəyişdirilməsi qeyd olunur.[29]Akademik Yaqub Mahmudov və digər həmmüəlliflərə[30] istinadən tədqiqatçı ermənilərin İrandan və Şərqi Anadoludan Qafqaza gəlmə olmasını, İrəvana yalnız 1828-ci il Türkmənçay müqaviləsindən sonra və Çar Rusiyasının köməyi ilə məskunlaşdıqlarını vurğulayır. Müəllifin də qeyd etdiyi kimi ermənilərə yaradılan bu qədər imkanlara baxmayaraq uzun müddət regionda mütləq əksəriyyət təşkil edə bilməyiblər. Yalnız XIX əsrin sonu, XX əsrin əvvəllərində davamlı miqrasiyalar hesabına regionda bir çoxluq yaratmağa müvəffəq olmuşdular. Bunun da nəticələri bəllidir: Ermənilərə ilk dəfə Qafqazda dövlət yaratmaq imkanı verilməsi, Azərbaycanın türk-müsəlman əhalisinə qarşı davamlı soyqırımlar, sürgünlər və bitmək bilməyən ərazi iddiaları. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı faktlara nəzər yetirən hindistanlı alim 1828-ci il Türkmənçay müqaviləsi ilə 100 min, 1829-cu il Ədirnə müqavilələrinin şərtlərinə əsasən 84 min erməninin Dağlıq Qarabağa köçürülməsini qeyd

dəlillər əsasında dünya dövlətlərinə, nüfuzlu beynəlxalq təşkilatlara çatdırmaq, saxta erməni təbliğatı nəticəsində formalaşmış yalan təsəvvürləri dəyişdirmək, ona hüquqi-siyasi qiymət verdirmək nə qədər çətin olsa da, şərəfli və müqəddəs bir iş kimi bu gün də, gələcəkdə də davam etdirilməlidir. Bu, soyqırımı qurbanlarının xatirəsi qarşısında indiki nəslin müqəddəs borcudur" (https://mod.gov.az/az/31-mart-azerbaycanlilarin-soyqirimi-gunu-413/ (15.01.2021).

[26] A. Khan, *a.g.e.*, s. 8-10.
[27] A. Khan, *a.g.e.*, s. 10-17.
[28] A. Khan, *a.g.e.*, s. 10.
[29] A. Khan, *a.g.e.*, s. 11-12.
[30] Yaqub Mahmudov və digərləri, *İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi*, CBS mətbəəsi, Bakı, 2010.

etməklə yalnışlığa yol verir. [31] Təbii ki Qarabağda da xeyli sayda erməni məskunlaşdırılmışdır, lakin köç dalğası Azərbaycanın digər tarixi torpaqlarına – Naxçıvan və İrəvan xanlıqlarının ərazisinə də edilmişdir. Yəni bunlar ümumi olaraq Azərbaycan ərazisinə köçürülən ermənilərin sayıdır. Bunu mənbələrin məlumatları da təsdiq edir. Smirnova görə İrandan 90 min nəfər, Türkiyədən təxminən 75 min nəfər[32], rəsmi məlumatlara görə Osmanlı dövlətindən 84 min nəfərdən artıq erməni və yunan[33], Paskeviçə görə 90 mindən artıq[34], K. Bəydilliyə görə isə 100 minədək[35] erməni köçərək Azərbaycan ərazisində məskunlaşmışdı.[36]

Azərbaycanlıların Dağlıq Qarabağdakı faiz nisbəti ilə bağlı da maraqlı müqayisə aparan müəllif yazır ki, 1890-cı illərədək etnik dominantlığı sabit qalmış, lakin 1988-ci ildə bu göstərici 25%-ə, 1989-cu ildə isə sıfır faizə düşmüşdür. Təbii ki Dağlıq Qarabağ ərazisi ermənilər tərəfindən uzun müddət etnik təmizlənmələrə məruz qalıb, lakin heç vaxt Dağlıq Qarabağda ermənilər tam olaraq mütləq əksəriyyət təşkil edə bilməyiblər. Məqalənin yekununda Azərbaycanla Ermənistan arasında baş verən 44 günlük müharibənin nəticəsini yüksək qiymətləndirən hindistanlı alim bütün dünyanı Azərbaycanın öz ərazilərində təhlükəsizliyini, suverenliyini təmin etməsinə dəstək olmağa çağırır. Bu çağırış Azərbaycan xalqı üçün çox önəmlidir, bu Azərbaycanın haqq səsinin xarici ölkələrə çatdırılmasında vacib məqamdır.

---

[31] A. Khan, *a.g.e.*, s. 15.
[32] Nikolay Smirnov, *Politika Rossii na Kafkaze v XVI – XIX vekah*. Sotsekgiz, Moskova, 1958, s. 180.
[33] *Aktı Sobrannıye Kafkaskoy Arkeografiçeskoy Komissiey (AKAK*), t. VII, Tipografiya Glavnogo Upravleniya Namestnika Kafkazskogo, Tiflis, 1878, dok. 830, s. 847.
[34] *AKAK*, t. VII, dok. 829, s. 845.
[35] Kemal Beydilli, 1988, "1828-1829 Osmanlı-Rus Savaşı'nda Doğu Anadolu'dan Rusya'ya Göçürülen Ermeniler", *Belgeler*: Türk Tarih Belgeleri Dergisi, C. XIII, S.17'den ayrıbasım, Türk Tarih Kurumu Basımevi, Ankara, s. 407, 410.
[36] İrade Memmedova. "İrevan Hanlığı'nın Nüfusu. (Seyyahların Bilgisi, Sosyal, Dini, Nüfus Yapısı, Uğraş Alanları, İrevan Hanlarının Nüfus Politikası, Ermenilerin Hanlığa Göç Ettirilmesi)'', *Akademik Tarih ve Düşünce Dergisi*, 4 (2017 ), s. 47.

**Nəticə**

Bütövlükdə qələmə alınan bu əsər Azərbaycan həqiqətlərinin düzgün istiqamətdə araşdırılması və təbliği baxımdan son dərəcə mühüm əhəmiyyət kəsb edir. İnfomasiya müharibəsi getdiyi bir şəraitdə bu cür elmi məqalələrlə Azərbaycanın haqq davasına verilən dəstək problemin ölkə hüdudlarından kənarda düzgün dərk edilməsi üçün daha geniş imkanlar açacaqdır. Sonda məqalənin müəllifinə yaradıcılıq uğurları arzulayır, vətənimiz üçün ən çətin və həssas bir dönəmdə Azərbaycana qələmi və ürəyi ilə dəstək olduğu üçün dərin təşəkkürümüzü bildiririk.

**İstifadə edilmiş ədəbiyyat**

31 Mart - Azərbaycanlıların Soyqırımı Günü https://mod.gov.az/az/31-mart-azerbaycanlilarin-soyqirimi-gunu-413/ (15.01.2021).

*Aktı Sobrannıye Kafkaskoy Arkeografiçeskoy Komissiey (AKAK),* t. VII, Tipografıya Glavnogo Upravleniya Namestnika Kafkazskogo, Tiflis, 1878.

Armenia's model for Nagorno-Karabakh only creates more chaos https://www.dailysabah.com/opinion/op-ed/armenias-model-for-nagorno-karabakh-only-creates-more-chaos (15.01.2021)

BEYDİLLİ, K., 1988, "1828-1829 Osmanlı-Rus Savaşı'nda Doğu Anadolu'dan Rusya'ya Göçürülen Ermeniler". *Belgeler*: Türk Tarih Belgeleri Dergisi, C. XIII, S. 17'den ayrıbasım, Türk Tarih Kurumu Basımevi, Ankara, s. 365-434.

*Xodjalı. Xronika genosida.* Azerneşr, Baku, 1993.

*Dogovorı Rossii s Vostokom*, sobral i izdal T. Yuzefoviç, tip. O.İ.Baksta, Sankt Petersburg, 1869.

İREVANLI, S., *Kafkaslardaki Kıyım ve Sürgünler. Batı Azerbaycan'da Rus ve Ermenilerin Yartığı Soykırım.* Türk Araştırmaları Vakfı, İstanbul, 2015.

KHAN, A., "Revisiting the Conflict between Azerbaijan and Armenia", *The Indian Journal of Politics*, vol. 54, №1-2, 2020, pp. 1-20.

MAHMUDOV, Y. ve diğerleri, *İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi*, CBS mətbəəsi, Bakı, 2010.

MAHMUDOV, Y., *Real tarix və "Böyük Ermənistan uydurması"*, Turxan NPB, Bakı, 2014.

MEMMEDOVA, İ., "İrevan Hanlığı'nın Nüfusu. (Seyyahların Bilgisi, Sosyal, Dini, Nüfus Yapısı, Uğraş Alanları, İrevan Hanlarının Nüfus Politikası, Ermenilerin Hanlığa Göç Ettirilmesi) ". *Akademik Tarih ve Düşünce Dergisi*, 4,2017, s.25-57.

MƏMMƏDOVA, İ., *İrəvan xanlığının əhalisi*, Azərbaycan Tarixçilər İctimai Birliyi, Bakı 2017.

MURADZADƏ, M., *Mart hadiseyi - əliməsi*. (ərəb əlifbasından çevirən S. Məmmədova), Azərnəşr, Bakı 1996.

SMİRNOV, N., *Politika Rissii na Kafkaze v XVI – XIX vekah*, Sotsekgiz, Moskova, 1958.